Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının “03” sentyabr 2014-cü il tarixli 1417050000004800 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 2

***“Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı” elektron xidməti üzrə inzibati reqlament***

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət rezident vergi ödəyicisinin filialının, nümayəndəliyinin elektron qaydada qeydiyyata alınmasını əhatə edir.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 33-cü, 34-cü maddələri, Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci l tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş, 1 nömrəli əlavə - “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”, həmin Qaydalara 1 nömrəli əlavə, eləcə də “Elektron xidmət növlərinin Siyahısı”nın 7.16-cı bəndi*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı**: *Azərbaycan Respublikasının Vergilər Nazirliyi*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Yoxdur.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Qismən avtomatlaşdırılmışdır.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Elektron xidmət 2 iş günü ərzində yerinə yetirilir.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi**: *Vergi ödəyicisinin filialı, nümayəndəliyi vergi uçotuna alınır.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv.*

**2.2. Elektron xidmət üzrə ödəniş**: *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış hüquqi şəxslər.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *http://www.e-taxes.gov.az/, http://www.e-gov.az*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

-*https://www.e-taxes.gov.az/dispatcher?menu=ekarg&submenu=2&nav=ekarg*

*- Vergi ödəyicilərinə xidmət strukturları (müvafiq idarə və şöbələr)*

*- Vergi ödəyicilərinə xidmət mərkəzləri*

*- Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195)*

*- office@taxes.gov.az*

.

*2.6* **Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

*- Vergi ödəyicisinin filialının, nümayəndəliyin vergi uçotuna alınması barədə ərizə.*

*- Filial, nümayəndəliyin Əsasnaməsinin surəti;*

*- Filial, nümayəndəliyin rəhbərinin təyin edilməsi barədə qərarın (əmrin) surəti;*

*- filialın, nümayəndəliyin bu fəaliyyətin yerinə yetiriləcəyi ünvanı təsdiq edən sənədin (mülkiyyət hüququnu təsdiq edən sənədin, icarə müqaviləsinin və ya qanunvericiliklə nəzərdə tutulmuş digər sənədin) surəti.*

*Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə vergi ödəyicisi tərəfindən sistemə daxil edilir, digər sənədlər isə PDF formatda sistemə əlavə edilir.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:** *İnteraktiv xidmətlərin istifadəçilərinin - Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.*

*Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.*

**3.2.1. Sorğunun formalaşdırılması:** *Vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyatı barədə ərizə İnternet Vergi İdarəsi portalının "Onlayn Kargüzarlıq" bölümü üzərindən işlənilir. Bu məqsədlə "Yeni müraciət" düyməsi sıxılır və açılan pəncərədə:*

- *"Kimə" siyahısından -- Azərbaycan Respublikasının Vergilər Nazirliyi*
- *"Müraciətin növü" siyahısından - Ərizə*
- *"Sənədin növü" siyahısından - Filialın onlayn qeydiyyatı ərizəsi seçilir və "Qəbul" düyməsi sıxılır.*

*Açılan ekranda vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyat məlumatları aşağıdakı ardıcıllıqla sistemə daxil edilir:*

*- filialın, nümayəndəliyin adı daxil edilir;*
*- Siyahıdan qeydiyyata alınanın filial və ya nümayəndəlik olduğu seçilir.*
*- filialın,nümayəndəliyin yerləşdiyi daşınmaz əmlakın vergi ödəyicisinin mülkiyyətində və ya icarədə olması barədə əlamət seçilir;*

***"Mülkiyyətində olan" seçildikdə***

*- Mülkiyyət hüququnu təsdiq edən sənədin nömrəsi və tarixi daxil edilir;*

***"İcarəyə götürən" seçildikdə***

*- icarəyə verənin hüquqi və ya fiziki şəxs olması qeyd edilir;*
*- İcarəyə verən hüquqi şəxs olduqda VÖEN daxil edilir;*
*- İcarəyə verən fiziki şəxs olduqda "DİN" və ya "Miqrasiya" əlamətlərindən biri seçilir;*
*- Pin kod daxil edilir;*

*Filialın nümayəndəliyin ünvan məlumatları daxil edilir:*

*- Siyahıdan rayon seçilir;*
*- Siyahıdan kənd (qəsəbə) seçilir;*
*- Siyahıdan poçt indeksi seçilir;*
*- Siyahıdan küçə seçilir;*
*- Ev nömrəsi daxil edilir;*
*- Mənzil daxil edilir;*
*- Filial, namayəndəliyin fəaliyyət kodu daxil edilir;*
*- Əlaqə məlumatları daxil edilir (Ev telefonu, iş telefonu, elektron poçt ünvanı, mobil telefon və sair).*
*- Filial, nümayəndəliyin Əsasnaməsinin surəti elektron formada əlavə edilir;*
*- Filial, nümayəndəliyin rəhbərinin təyin edilməsi barədə qərarın (əmrin) surəti elektron formada əlavə edilir;*
*- filialın, nümayəndəliyin bu fəaliyyətin yerinə yetiriləcəyi ünvanı təsdiq edən sənədin (mülkiyyət hüququnu təsdiq edən sənədin, icarə*

*müqaviləsinin və ya qanunvericiliklə nəzərdə tutulmuş digər sənədin) surəti elektron formada əlavə edilir.*

*Vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyatı bağlı bütün əməliyyatlar başa çatdıqdan sonra "İrəli" düyməsi sıxılır. Bu halda daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün "Qəbul" düyməsini basır. Əks halda, imtina etmək üçün "İmtina" düyməsi icra edilir. Təsdiqdən sonra ekrana "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyata alınması barədə ərizə"nin icraya qəbul edilməsi barədə Bildiriş çıxır.*
*"Çap" düyməsi vasitəsi ilə Bildirişi çap etmək mümkündür.*
*Vergi ödəyicisi tərəfindən göndərilən bu elektron ərizə onun "Göndərdiklərim" qovluğuna düşür.*

**3.2.2. Sorğunun qəbulu:** *Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16 rəqəmli qeydiyyat nömrəsi verilir.*

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

3.3.1. **Sorğunun yerinə yetirilməsindən imtina halları: "***Vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyatı ərizəsi"ni ancaq vergi ödəyicisi olan rezident hüquqi şəxslər təqdim edə bilərlər. Filialının, nümayəndəliyin fəaliyyət növü vergi ödəyicisinin fəaliyyət növləri arasında olmalıdır. Vergi ödəyicisinin filialının, nümayəndəliyinin ən azı bir fəaliyyət növü olmalıdır və həmin fəaliyyət əsas fəaliyyət kimi qeyd edilməlidir. Əks hallarda vergi ödəyicisinin filialının, nümayəndəliyinin qeydiyyatı ərizəsinin icraya qəbul edilməsindən imtina edilir. Bu məsələlərə sistem tərəfindən avtomatik nəzarət olunur və ekrana müvafiq mesajlar çıxarılır.*

*Ərizənin göstəriciləri ilə ona elektron formada əlavə olunmuş sənədlərdə kənarlaşmalar aşkar edildikdə, vergi ödəyicisinin filialı, nümayəndəliyi qeydiyyata alınmır. (Kənarlaşmalar barədə vergi ödəyicisinin elektron ünvanına uyğunsuzluq məktubu göndərilir.)*

**3.3.2. Sorğunun qəbulu:** *İmtinaya əsas olmadıqda vergi ödəyicisinin şəxsin filialı, nümayəndəliyi vergi uçotuna alınır.*

**3.4. Sorğunun icrası:**

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

*- İstifadəçi adı, şifrə və parola görə vergi ödəyicisinin sistemdə təyin edilməsi (identikləşdirilməsi), məsul şəxs - Azərbaycan Respublikasının Vergilər Nazirliyi;*

*- Gücləndirilmiş elektron imza sahibinin sistemdə təyin edilməsi (identikləşdirilməsi), məsul şəxs - akkreditə edilmiş sertifikat mərkəzi;*

*- Filialın, nümayəndəliyin qeydiyyatı ərizəsinin icraya qəbul edilməsi barədə vergi ödəyicisinə Bildirişin göndərilməsi, məsul şəxs - Azərbaycan Respublikasının Vergilər Nazirliyi;*
*- Vergi ödəyicisinin filialının, nümayəndəliyinin vergi uçotuna alınması, (prosesin sonu)məsul şəxs - Azərbaycan Respublikasının Vergilər Nazirliyi.*

*Elektron xidmətin göstərilməsinə Azərbaycan Respublikası Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı baş idarəsi və İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi məsuliyyət daşıyır.*

**3.4.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:** *Elektron xidmət 2 iş günündən gec olmayaraq yerinə yetirilir.*

**3.4.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur.*

**3.4.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:**

*Xidmətin yerinə yetirilməsi nəticəsində vergi ödəyicisinin filialı, nümayəndəliyi vergi uçotuna alınır və bu barədə vergi ödəyicisinin elektron ünvanına məlumat göndərilir.*

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.5.1. Nəzarət forması:** *Elektron xidmətin göstərilməsi zamanı filialın, nümayəndəliyin fəaliyyət növlərinə və ərizə göndərən vergi öədyicisinin hüquqi şəxs olması ilə bağlı məhdudiyyətlərə Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.*

*Ərizəyə elektron formada əlavə onunmuş sənədlərin düzgünlüyünə nəzarət Vergilər Nazirliyinin vəzifəli şəxsi tərəfindən həyata keçirilir.*

**3.5.2. Nəzarət qaydası:** *Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195) fəaliyyət göstərir.*

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı vergi orqanına (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər.*

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.*

**3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.*

**3.6.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 78-ci maddəsinə əsasən, 1 ay müddətinə baxılır.*

*Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

* * *